# TARİX ÜZRƏ DƏRSDƏNKƏNAR TƏDBİRLƏRİN TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİRİ

**Məleykə Nağıyeva,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: maleyka001@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* M.M. Əmirov,
*ped.ü.fəls.dok.* D. Musayev

***Açar sözlər:*** *tarix üzrə dərsdənkənar tədbirlər, təlim-tərbiyəvi əhəmiyyəti, dərsin səmərəsi, şəxsiyyətin formalaşdırılması, diyarşünaslıq, kütləvi işlər, qruplarla aparılan işlər, fərdi işlər*

***Ключевые слова:****, внеурочные мероприятия по истории, учебно-воспитательное значение, эффективность уроков, формирование личности, краеведение, массовые работы, групповые работы, индивидуальные работы*

***Key Words:*** *History, extracurricular activities, educational and educational significance, lesson effectiveness, personality development, ethnography, mass affairs, work with groups, individual work*

Araşdırmalardan aydın olur ki, şəxsiyyətyönümlü kurikulumun tələblərinə uyğun olaraq hərtərəfli inkişaf etmiş vətəndaşların formalaşdırılması çoxşaxəli istiqamətlərlə həyata keçirilir. Həmin istiqamətlərdən biri də səmərəli təşkil edilmiş dərsdənkənar tədbirlərdir. Dərsdənkənar tədbirlər əmək tərbiyəsi, mənəvi tərbiyə, əxlaq tərbiyəsi, estetik tərbiyə, əqli tərbiyə, ideya tərbiyəsi, siyasi tərbiyə, ekoloji tərbiyəni formalaşdırmaqla yanaşı, tarixi biliklərin şüurlu və möhkəm mənimsənilməsinə də şərait yaradır.

Çox yüksək təlim və tərbiyəvi əhəmiyyəti olan dərsdənkənar tədbirlərin tətbiqini reallaşdıran metodların yaranması həyatın cəmiyyət qarşısında qoyduğu tərbiyə vəzifəsi ilə bağlıdır. Problemlə bağlı pedaqoji ədəbiyyatlarda çoxsaylı metodlar təsvir olunub. Onların köməyi ilə hər hansı bir məqsədə çatmaq olur. Metodların modifikasiyaları da çoxdur. Bəzi mütəxəssislər belə hesab edirlər ki, metodların təsnifatını yaratmaq metodlar sistemini müəyyən əlamətlərinə görə qurmaq deməkdir. Zahirən təsnifatlar metodlarda ümumi və spesifik, zəruri və təsadüfi, nəzəri və praktiki cəhətləri aşkar etməyə imkan verir.

Bu metodlar sisteminin komponentlərindən biri də tətbiqi tətbiqi vacib olan tarix üzrə dərsdənkənar tədbirlərdir. Problem bu vaxta qədər pedaqoji ədəbiyyatda necə işıqlandırılıb?

Rus pedaqoqu D.B. Кацюба "Внеклассная работа по истории" adlı kitabında dərsdənkənar tədbirlərin təsnifatını, tətbiqi metodların, iş formalarını, eləcə də təlim və tərbiyəvi əhəmiyyətini işıqlandırmışdır (1, 35) Kitabın məzmunu ilə tanışlıqdan aydın olur ki, D.V. Kasyubanın təklif etdiyi dərsdənkənar iş formaları təlim-tərbiyə sahəsində yetərincə səmərə vermir.

Professor A.N. Abbasov dərsdənkənar işlərin tətbiqinin üç formasını verib. 1) Kütləvi işlər formasında dərsdənkənar iş metodu; 2) Qruplarla aparılan işlər formasında dərsdənkənar iş metodu; 3) Fərdi işlər formasında dərsdənkənar iş metodunun olduğunu təklif edir" (2, 68). Prof. A.N. Abbasovun dərsdənkənar tədbirlərlə bağlı verdiyi təsnifat daha işləkdir. Təsnifatın həm strukturundan, həm də məzmunundan aydın olur ki, müəllifin verdiyi təsnifat təlim-tərbiyənin səmərəliliyini artırmağa qabildir.

Prof. F.A. Rüstəmov öz yaradıcılığında dərsdənkənar tədbirlərə çox geniş yer verərək yazır: "Sinifdənxaric və məktəbdənkənar təlim və təhsil-tərbiyə şəxsiyyətin məqsədyönlü formalaşması prosesidir. Bu tərbiyəçi müəllim və şagirdlərin idarəedilən və nəzarətdə olan qarşılıqlı təsiridir. Həmin təsirin son məqsədi cəmiyyət üçün gərəkli və faydalı şəxsiyyət formalaşdırmaqdır. Müasir anlamda dərsdənkənar təhsil tərbiyə prosesi qarşıda qoyulmuş ümumi məqsədə çatmaq üçün müəllim və şagirdlərin səmərəli əməkdaşlığıdır" (3, 285). Deməli, müəllif haqlı olaraq dərsdənkənar tədbirlərin həm təlim, həm də tərbiyəvi istiqamətlərini çox düzgün müəyyənləşdirib və yetərincə dəyərləndirib.

Dərsdənkənar işin problemləri - işin maarifləndirici və vətənpərvərlik məsələləri tarix təliminin ümumi məsələləri ilə təyin edilir, amma bu vaxt bütün problemlər üzrə dərsdənkənar işin mənbələrinin sistemi nəzərə alınmalıdır. Spesifika ondan ibarətdir ki, dərslə müqayisədə tarixçi-

metodist prof. M.M. Əmirovun sözləri ilə desək, "başqa material və başqa vasitələr" əldə edilir. Tarix üzrə dərsdənkənar işə təqdim edilən ən əhəmiyyətli tələb ideyalılıq və məqsədə yönlülük olur. Onun məzmunu, formaları və vasitələri hər şeydən əvvəl şagirdlərdə elmi dünyagörüşünü formalaşdırmağı təmin etməlidir. Tarix üzrə dərsdənkənar işin təşkilində ikinci tələb cəmiyyət həyatının müxtəlif tərəflərini əks etdirən yeni faktlarla və anlayışlarla şagirdlərin bilik və bacarıqlarının zənginləşdirilməsindən ibarətdir. Şagirdlər öz biliklərini genişləndirir, ictimai inkişafın qanunauyğunluqlarını dərindən anlayırlar. Dərsdənkənar işdə müəllim şagirdlərini biliklərin-arxeologiya, numizmatika, heraldika kimi sahələri ilə daha yaxından tanış etmək imkanına malikdir. Dərsdənkənar işin ən əhəmiyyətli məsələsi şagirdlərdə tarixə marağın gücləndirilməsidir. Bu halda hər şeylə sadəcə maraqlanma nəzərdə tutulmur, ən çox tarixi hadisələrin düzgün dərk edilməsində dərsə marağın tərbiyəsi, müasir həyatın dərk edilməsi, onda aktiv iştiraka cəhd nəzərdə tutulur. Şagirdlər üçün tarixin mənasının anlanılması yalnız cəmiyyətin həyatında əvəzolunmaz rol oynayan elm sahələri kimi əhəmiyyətli dərəcədə deyil, həm də hər bir insanın praktiki ehtiyacı böyük rol oynayan müasirliyə maraq, bu gün bizi maraqlandıran problem və məsələlər vətəndaşın tərbiyə olunması yollarından biridir.

Dərsdənkənar işlərin imkanlarından müəllim şagirdlərin əqli qabiliyyətlərinin inkişafı üçün istifadə etməlidir. Buna şərait yaradan amillərdən biri bilik mənbələrinin müxtəlifliyidir. Bunlar bilavasitə həqiqəti əhatə edən elm banilərinin əməyi, maddi mədəniyyətin müxtəlif predmetləri, tarixi sənədlər, elmi araşdırmalar, incəsənət əsərləri, bədii ədəbiyyatdır. Mənbələrin müxtəlifliyi şagirdlərin intellektual və praktik bacarıqlarının inkişafı üçün çox əhəmiyyətlidir. Şagirdlərin formalaşması və təkmilləşdirilməsi dərsdənkənar işlə daha sıx bağlıdır, məhz bacarıqlar: kitabxanada kataloq üzrə lazımlı kitabı tapmaq, mövzuya görə biblioqrafiyanı təşkil etmək, ensiklopediya nəşrlərindən istifadə etmək, bir və və bir neçə mənbə üzrə məruzə və xəbərləri hazırlamaq, mövzunun hazırlanması vaxtı ilkin materialı cəlb etmək, muzey eksponatları, müasirlərin xatirələrinin ədəbiyyatda işıqlandırılması, arxiv sənədləri və b. mənbələr: məktəb və böyük auditoriya qarşısında siyasi və tarixi mövzulara aid məruzə və ya xəbərlə çıxış etmək, hadisə şahidləri və ya iştirakçıları ilə söhbət aparmaq və onun nəticələrini düzgün anlamaq, müəssisə və ayrı-ayrı şəxslərlə işgüzar yazışmanı təşkil etmək, daha əvvəl məlum olmayan faktları və materialları yığmaq, həmçinin doğma yurdun keçmiş və indiki halı haqqında məlumat toplamaq, tarixi yerlərə ekskursiyalar keçirmək - tədris müəssisələrinə və xalq muzeylərinə, nümayiş zalları, modellər, şəkillər, diaqramlar, sxemlər, maketlərdə tarixi keçmişi yenidən canlandırmaq.

Bu fəaliyyətin ən əhəmiyyətli nəticəsi keçmiş və müasir hadisələrin müzakirəsinə elmi yanaşmanın əsaslarının məktəblilərdə formalaşdırmaqdır. Şagirdlərdə ictimai inkişafın əsas qanunlarını anlaması, müstəqil tətbiqetmə qabiliyyətləri olmalıdır. Tarix üzrə dərsdənkənar iş müəyyən kollektivdə şagirdlərin fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır. Burada başqalarının əməyinin nəticələri açılır, şəxsi səylərin dəyəri və şəxsi biliklərin səviyyəsi öyrənilir. Çətinliklərin öhdəsindən birgə gəlmək, əməyin nəticələrindən razı qalmaq, işin dəyərləndirilməsi şagirdlərdə kollektiv həyəcana səbəb olur. Bütün bunlar onlarda iradə, yoldaşlıq, qarşılıqlı yardım, təşəbbüskarlıq kimi keyfiyyətlərin tərbiyəsinə imkan verir. Məşğələlər zamanı yalnız şagirdləri fəaliyyətinin obyektlərini diqqətlə ölçüb-biçmək deyil, həm də onların birgə iş üsulları və hər kəsin onda iştirakının xarakteri əhəmiyyətlidir. Qeyd edilmiş məsələlərin reallaşdırılması ideya-siyasi, əmək və əxlaqi tərbiyə ilə sıx birlik arasında şəxsiyyətin ahəngdar inkişafı probleminin həlli üçün əlverişli şərait yaradır.

Dərsdən fərqli olaraq tarix üzrə dərsdənkənar iş könüllülük əsasında təşkil olunur. Müəllim azad seçim əsasında şagirdləri fəaliyyətin bu növünə cəlb edir. Təcrübə göstərir ki, məhz belə halda məşğələlər şagirdləri özünə cəlb edir.

Bəzi mütəxəssislər tərbiyə prosesinə sırf tərbiyə funksiyalarını yerinə yetirən bir sistem kimi baxırlar. Bu yanlış fikirdir. Müxtəlif tərbiyə metodlarının vasitəsilə dərsdənkənar şəraitdə həyata keçirilən bütün "tərbiyəvi işlər" biliklərə əsaslanır. Bu işlər informasiya daşıyıcıları və ötürücüləridir.

**Tarix üzrə dərsdənkənar tədbirlərin çox işlək istiqamətlərini cədvəldə ümumiləşdirilmiş şəkildə veririk:**

**Cədvəl № 1**

| № | Şagirdlərin şüurunu və fəaliyyətini eləcə də təlim-tərbiyə bacarıqlarını stimullaşdıran və formalaşdıran dərsdənkənar iş formaları | Tədbirin keçirildiyi tarix |
|---|---|---|
| **1.** | Məktəbdə tarixi mövzularda silsilə müharibələrin təşkili | il boyu |
| **2.** | Məktəb üzrə etik və estetik mövzularda söhbət | il boyu |
| **3.** | Tarixə aid bədii əsərlərin müzakirəsi (sinifdənxaric oxuların təşkili). | il boyu |
| **4.** | Mövcud beynəlxalq münasibətlərə həsr olunmuş polemikalar (yuxarı sinif şagirdlərinin iştirakı ilə). | il boyu |
| **5.** | Tarixi hadisələrə həsr olunmuş disputların təşkili | il boyu |
| **6.** | Tarixi hadisələrə həsr olunmuş sual-cavab axşamları | il boyu |
| **7.** | Tarixi günlərdə-toplantılarda tarixsevər yuxarı sinif şagirdlərinin çıxış və məruzələri ilə tədbirlərə hazırlanması | il boyu |
| **8.** | Tarixə həsr edilmiş gecələrin təşkili | il boyu |
| **9.** | Tarixə həsr edilmiş dəyirmi masaların təşkili | il boyu |
| **10.** | Tarixə həsr edilmiş turnirlərin təşkili | il boyu |
| **11.** | Tarixə həsr edilmiş müsabiqələrin keçirilməsi. | il boyu |
| **12.** | Tarixə aid şagird konfranslarının təşkili və keçirilməsi. | il boyu |
| **13.** | Tarix üzrə fənn dərnəklərinin təşkili | il boyu |
| **14.** | Tarixdən fakültativ (maraq məşğələlərinin) təşkili. | il boyu |

Digər fənlərdən fərqli olaraq tarix fənnin təlimində dərsdənkənar tədbirlərin xüsusi əhəmiyyəti var. Əlbəttə, burada həlledici rolu tarix müəllimi oynayır. Tarix müəllimi didaktikanın və tərbiyə nəzəriyyəsinin tələblərinə uyğun formada qursa çox yüksək nailiyyətlərə nail ola bilər.

Araşdırmanın nəticəsi olaraq deyə bilərik ki, tarixdən dərsdənkənar tədbirlər dərslərin səmərəliliyini 10-12% artırır. Araşdırmaların nəticəsini 1 saylı sxemində ümumiləşdirmişik:

**Sxem №1**



Dərsdənkənar tədbirlərin məzmununda kifayət qədər tarix elminin elementləri vardır. Burada da insanın praktik fəaliyyəti və davranış üçün zəruri olan biliklər öyrədilir. Biliklər sisteminə əsaslanmayan tərbiyə sistemi yoxdur və ola da bilməz. Əgər bir dərsdənkənar şəraitdə şagirdlərlə etik söhbət aparırıqsa, deməli, hansısa etik bilikləri və onlara müvafiq olaraq davranmağı öyrətmək istəyirik.

Nəticə olaraq deyə bilərik ki, dərsdənkənar tədbirlərin təlim-tərbiyəvi əhəmiyyətini nəzərə alaraq təcrübəli tarix müəllimi tədris ilinə hazırlıqla bağlı iş planını tərtib edərkən hər sinif üzrə (əlbəttə yaş, bilik və bacarıqlar nəzərə almaqla) tarix təlimi ilə yanaşı tarixdən dərsdənkənar tədbirlərin keçirilməsi və təşkilinə dair məsələlərə xüsusi diqqət yetirilməlidir. Dərsdənkənar tədbirlərin təşkilində didaktika və tərbiyə nəzəriyyəsinin tələbləri nəzərə alınmalıdır.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, dərsdənkənar tədbirlərin ən işlək forma və metodlarını özündə əks etdirən təsnifat müəyyənləşdirilmişdir. Eləcə də dərsdənkənar tədbirlərin həm təlim, həm də tərbiyəvi cəhətləri tədqiq edilərək üzə çıxarılmışdır.

**Problemin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, müəllif tərəfindən irəli sürülmüş metodik sistem tarixin tədris metodikası elmini qismən olsa zənginləşdirəcək.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, ümumtəhsil məktəblərinin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində irəli sürdüyümüz metodik sistemdən istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1. Кацюба D.В. Внеклассная работа по истории / Сост. М.: Просвещение, 1975.
2. Abbasov A.N. Pedaqogika: müxtəsər konspekt və sxemlər. Bakı: Mütərcim, 2007.
3. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (Yeni kurs): Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbləri üçün dərs vəsaiti. Bakı: Elm və təhsil, 2010.


**М. Х. Нагиева**

## ВЛИЯНИЕ ВНЕУРОЧНЫХ МЕРОПРИЯТИЙ ПО ИСТОРИИ НА КАЧЕСТВО УЧЕБЫ

***РЕЗЮМЕ***

В статье обоснована актуальность проблемы. Выражено отношение к уровню проблемы. Показана классификация, отражающая и формы, и методы применения внеурочных работ. Исследованы и установлены и учебные, и воспитательные стороны внеурочных мероприятий по истории.

**M.Kh. Nagiyeva**

## THE INFLUENCE OF EXTRACURRICULAR ACTIVITIES ON QUALITY OF TRAINING ON HISTORY

***SUMMARY***

The essence of the problem is justified in the article. The attitude of the problem to the level of work has been expressed. The classification reflects the forms of both extracurricular activities and application methods. Both training and education aspects of extracurricular activities on history has been studied.

In the context of extracurricular activities, it is expedient to use sufficient elements of history science.

**Redaksiyaya daxil olub:** 19.02.2018